2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 4572,5 min ton yük, 29406,1 min nəfər sərnişin daşınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,6 faiz, sərnişin daşınması 2 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 15884 min manat gəlir əldə edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,6 faiz, sərnişin daşınması 1,5 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 1,6 faiz artmışdır.